Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan Ordusunda düşməni lərzəyə salacaq yeni hərbi texnikalar - sırada Fransanın "Thales International"ı, İtaliyanın "Leonardo"su var...

**Hərb sahəsində Azərbaycanın xüsusi diqqət mərkəzində saxladığı əsas məqamlardan biri də ordusunu müxtəlif ölkələrdən alınan hərbi texnika ilə təmin etməkdir. Bu xüsusda artıq faktdır ki, son illərdə Qərb şirkətləri də Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirməyə başlayıb.**

Ümumiyyətlə, Azərbaycan son illər Qərb ölkələrindən, xüsusilə də NATO, Avropa Birliyinə daxil olan dövlətlərdən yeni silah və hərbi texnikaların satınalınmasını həyata keçirir. Eləcə də artıq heç kimə sirr deyil ki, bu gün Avropanın bir çox ölkələri Azərbaycana açıq şəkildə silah satmağa hazır olduqlarını bəyan edirlər. Bu ölkələrdən Fransa son illərdə xüsusilə seçilir.

Məsələ burasındadır ki, erməni lobbisinin bütün cəhdlərinə rəğmən, Fransa şirkətlərinin Azərbaycanla bir çox sahələrdə hərbi əməkdaşlığı genişlənir. Məsələn, bu ölkəyə məxsus "MBDA Systems" şirkətinin raket texnologiyaları, hava hücumundan müdafiə sistemləri sahəsində, "CNİM" mühəndis texnikaları, "Thales" radiolokasiya sistemləri, optik cihazlar, peyklər, kəşfiyyat avadanlıqları, "Proengin" şirkəti NBC kəşfiyyat avadanlıqlarını Azərbaycana təklif edir. Dəniz sistemləri sahəsində "Naval Group" şirkəti Azərbaycana OPV-90 gəmilərini, "ECA Robotics" insansız robot vasitələrini təklif edib. "Nexter Systems" şirkəti ilə MSN arasında bəzi məhsulların birgə istehsalının yaradılması, "Airbus Defense" şirkəti ilə yeni kəşfiyyat peyklərinin hazırlanması və orbitə buraxılması ilə bağlı ölkəmizlə əməkdaşlıqda maraqlı tərəflərdir.

Məhz belə bir vaxtda bəlli olub ki, Fransanın "Thales İnternational" şirkəti Azərbaycanla mülki və hərbi aviasiya sahəsində yeni layihələri nəzərdən keçirir. "Thales"in Azərbaycan nümayəndəliyinin direktoru Mehmet Şahan bu xüsusda "azeridefence" jurnalına açıqlamasında yeni maraqlı açıqlamalar verib. Mehmet Şahanın sözlərinə görə, "Hava hərəkətinin idarə olunması sahəsində "Thales"in Azərbaycanda əsas böyük müştərisi "Azərbaycan Hava Yolları" (AZAL) aviadaşıyıcı şirkətidir: "Bu sahədə "Thales"in AZAL şirkəti ilə indiyədək bir neçə müqaviləsi olub. Prezident İlham Əliyevin 2019-cu ilin iyulunda Fransaya səfəri çərçivəsində AZAL ilə "Thales" arasında növbəti müqavilə imzalanıb. "Thales" Azərbaycanda daha aktiv fəaliyyət göstərmək, bura yeni texnologiyalar, yeni ideyalar gətirmək fikrindədir". Şirkət rəhbərinin sözlərinə görə, Parisdə imzalanmış müqavilələr çərçivəsində Azərbaycan tərəfi ilə birlikdə onların mövcud avadanlıqlarına texniki dəstək göstərilməsi və gələcəkdə lazım olan avadanlıqların Azərbaycanda yığımı nəzərdə tutulur. Müqavilə çərçivəsində Fransada istehsal olunan məhsulların, o cümlədən mülki təyinatlı radarların komponentlər şəklində Azərbaycana gətirilərək Bakıda yığımı düşünülür. Həmçinin, AZAL-ın əldə etdiyi avadanlıqlara komponent səviyyəsində təmir-servis xidmətləri göstəriləcək.

Sonrakı mərhələdə ətraf regionlardan tələb olunan avadanlıqların Bakıda yığılıb ixrac edilməsi düşünülür. Şirkət rəsmisi "Thales"in Azərbaycanın Müdafiə Nazirliyi ilə müqavilə imzalamış ilk fransız şirkəti olduğunu deyib. Qeyd edək ki, hərbi və mülki sektorda fəaliyyət göstərən Fransanın "Thales İnternational" şirkətinin illik dövriyyəsi təqribən 20 milyard avro təşkil edir. 2018-ci ildə hazırlanmış reytiqində (Defense News Top-100) "Thales" dünyanın ən böyük müdafiə sənayesi şirkətləri sırasında 9-cu, 2019-cu ildə isə 16-cı yerdə qərarlaşıb. Dünyanın ən böyük 100 müdafiə sənayesi şirkəti siyahısında yer alan Avropa qitəsindən 5-ci ən böyük şirkətdir. 2018-ci ildə "Thales"in dövriyyəsinin təqribən 8.5 milyard avrosu hərbi məhsulların payına düşüb. İndi bu şirkətlə Azərbaycan hərbi sahədə də əməkdaşlığı genişləndirməyi düşünür. Bu isə Qərb texnologiyasının daha sürətlə Azərbaycana gəlişinə imkan verir. Eyni zamanda, hərbi hava qüvvələri sahəsində Azərbaycanın mövqelərinin daha da güclənməsinə imkan verir.

Bundan başqa məlumdur ki, öz döyüş vasitələrini Azərbaycana təqdim edən digər Qərb ölkələrindən biri də İtaliyadır. Artıq bəllidir ki, İtaliyanın "Leonardo" şirkətinin "M-346 Master" reaktiv təlim-məşq təyyarəsinin bir neçəsi ölkəmizə gətirilib. Ümumiyyətlə, "Leonardo" korporasiyasının Azərbaycanda həyata keçirilən bir neçə layihəsi mövcuddur. Bu korporasiyanın tərkibinə daxil olan "Agusta Westland" şirkəti Azərbaycana helikopterlərin satışını həyata keçirib. Bu şirkətin tərkibində yer alan "OTO Melara" da Azərbaycanla əlaqələrini genişləndirmək istəyir. Məlumat üçün bildirək ki, "OTO Melara" müxtəlif silah sistemlərinin istehsalı sahəsində ixtisaslaşıb. Başqa bir Avropa ölkəsi olan Avstriyanın istehsalı olan müəyyən silahlar ordumuzda istifadə olunur. Bu çərçivədə Bolqarıstanı da qeyd etmək olar. Onunla da çox aktiv hərbi əməkdaşlıq var. Macarıstanla əlaqələr yüksələn xətt üzrə inkişaf edir, Çexiya və Slovakiyanın istehsalı olan artilleriya sistemləri, təlim təyyarələri, döyüş sursatları, simulyasiya vasitələri ordumuzun silahlanmasında yer alır. Finlandiya da Azərbaycana silah ixracını həyata keçirib. İsveçin dünya şöhrətli "SAAB" konserni isə Azərbaycana "JAS-39 Gripen E" təyyarəsinin təklif edib. Bu təyyarələr gediş ehtiyatına, davamlılıq qabiliyyətinə və müasir avionikasına görə analoqlarından fərqlənir. "Gripen E" "hava-hava" sinifli "Meteor", AMRAAM, IRIS-T və AIM-9 aviasiya raketləri ilə silahlanılır.

Bundan başqa məlumdur ki, Azərbaycan yaxın tezlikdə Rusiyadan Su-35 və MiQ-35 döyüş təyyarələri almağa hazırlaşır. Rus hərbi ekspert Andrey Frolov hesab edir ki, Azərbaycan Rusiyadan bu təyyarələrlə yanaşı, daha müasir hərbi helikopterlərin alışını da həyata keçirə bilər. Söhbət, ilk növbədə, Mİ-28H və Ka-52 helikopterlərindən gedir. Xüsusən də sonuncu Azərbaycan üçün daha çox maraq kəsb edir. Çünki ordusunu daha güclü hala gətirən Azərbaycan aviasiya qüvvələrinin də daha təkmil hala gəlməsi üçün zəruri addımlar atır. Dağlıq Qarabağ münaqişəsi hərb yolu ilə həll olunacağı təqdirdə isə aviasiya burada kifayət qədər həlledici faktorlardan biri olacaq və bu reallıq ölkəmizdə lazımınca qiymətləndirilir. Bu fonda Azərbaycan hərbi aviasiya parkına Rusiya istehsalı olan yeni hücum helikopterlərini daxil etməyi heç vaxt diqqətdən kənarda qoymur. Artıq müəyyən müddətdir Azərbaycan tərəfi Rusiya istehsalı olan Ka-52 "Alliqator" tipli zərbə helikopterlərinin satın alınmasına marağını ifadə edib. Bu da təsadüfi deyil. Ka-52 "Alliqator" kəşfiyyat-zərbə helikopteri istənilən hava şəraitində və günün istənilən vaxtında tankların, zirehli və zirehsiz döyüş texnikalarının, canlı qüvvələrin, düşmənin helikopterlərinin məhv edilməsi üçün təyin olunub. Helikopter desanta odlu dəstək göstərə, patrul xidməti yerinə yetirə və hərbi kolonların müşayiətini həyata keçirə bilər. Ka-52 "Alliqator" Suriyada Rusiya aviasiyasının tərkibində uğurlu şəkildə istsmara verilib. Yeni real döyüş şəraitində də tam özünü doğruldub.

Azərbaycan qardaş Türkiyədən də döyüş texnikasının alışını diqqətdə saxlayır. Dünyanın ən böyük 100 müdafiə sənayesi şirkəti sırasında yer alan Türk Aviasiya və Kosmos Sənayesi (TUSAŞ) şirkəti bu fonda ölkəmizlə yeni əməkdaşlıq münasibətləri qurmaqdadır. Xüsusən də TUSAŞ-ın sıfırdan yaratdığı, son illərdə Türkiyə Silahlı Qüvvələri tərəfindən hərbi əməliyyatlarda uğurla istifadə edilərək özünü doğrultmuş T-129 ATAK zərbə helikopteri və "Anka" pilotsuz uçuş aparatı Azərbaycanı da yaxından maraqlandırır. Şirkətin istehsalı olan "Hürkuş" təlim təyyarəsi və hədəf dronları da tezliklə ordumuzun ixtiyarında ola bilər. TUSAŞ şirkətinin baş direktoru Təməl Kotil bu xüsusda qeyd edir ki, T-129 ATAK helikopteri Azərbaycan şərtlərində test edilib:"T-129 ATAK zərbə helikopteri Azərbaycan şərtlərində üstün qabiliyyətlərini sərgiləmək fürsəti qazanıb. Azərbaycan Hərbi Hava Qüvvələrinin rəsmiləri ATAK zərbə helikopterimizə böyük maraq göstərdilər. Helikopterin texniki-taktiki xüsusiyyətləri barədə hərbi heyətə məlumatlar verildi. Azərbaycanda "Anka-S"in nümayiş uçuşlarının icra edilməsinə yönəlmiş görüşmələrimiz davam edir. Azərbaycanla həm də hədəf dronlarla, yəni əvvəlki illərdə "Durna" və indi "Şimşək"lə bağlı görüşmələr var. Önümüzdəki günlərdə "Şimşək" sisteminin Azərbaycana göndərilməsi, "Şimşəy"in uçuş nümayişi, atışlı və atışsız olmaqla, zenit-raket komplekslərinə qarşı tətbiqi nəzərdə tutulur.

"Şimşək" sisteminin Azərbaycanda sınaqlarından sonra ortaq istehsalı ilə bağlı Azərbaycanın müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığın yaradılmasını düşünürük. Azərbaycan rəsmiləri ilə keçirilən görüşmələrin sonunda, ən yaxın müttəfiqimiz Azərbaycanın Hərbi Hava Qüvvələrinin aviasiya sahəsində ehtiyaclarını yerli imkanlarla yaratdığımız "Anka" və "Aksunqur" pilotsuz uçuş aparatlarımız, "Hürkuş" və "Hürkuş-C" müasir təlim təyyarələrimiz, "Hürjet" yüngül hücum təyyarəsi, "Şimşək" yüksək sürətli hədəf təyyarələrimiz və son günlərdə gündəmdə olan rabitə və nəzarət peyk layihələrimizlə uzun müddət qarşılaya bilərik. Uzunmüddətli əməkdaşlığımızın sürətləndirilməsinin digər türkdilli dövlətlərə də örnək təşkil edə biləcəyini düşünürük".

Bütün bunlar ordumuzun ixtiyarında yaxın tezlikdə yeni çoxsaylı texnikanın olacağını deməyə əsas verir. Təbii ki, bütün bunlar mütləq mənada Qarabağ münaqişəsinin sonrakı gedişinə də öz təsirini göstərəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**